Azərbaycan.- 2021.- 1 aprel. S. 4.

# Azərbaycan ilə Tacikistan arasında ikitərəfli əlaqələrin əhəmiyyəti vurğulanıb



**Martın 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun tacikistanlı həmkarı Sirociddin Muhriddin ilə görüşü olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Tacikistan arasında bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri müzakirə olunub.

Tacikistanlı nazir COVID-19 pandemiyası ilə mübarizədə ölkəsinə göstərdiyi dəstəyə görə, xüsusilə pandemiya dövründə tranzit daşımalarında göstərdiyi dəstək və yardıma görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Tərəflər iki ölkənin Xarici İşlər nazirlikləri arasında əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli və beynəlxalq formatlarda qarşılıqlı dəstəyin önəmini vurğulayıblar. İkitərəfli əlaqələrin, o cümlədən iqtisadi-ticarət, nəqliyyat, təhsil, mədəniyyət sahələrində münasibətlərin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Belə ki, birbaşa hava əlaqəsinin yaradılmasının əhəmiyyəti, habelə ADA Universiteti ilə Tacikistanın ali təhsil ocaqları arasında əlaqələrin inkişaf etdirilməsinin vacibliyi qeyd olunub. Hər iki ölkədə qarşılıqlı şəkildə mədəniyyət günlərinin keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov tacikistanlı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib.

Görüşün yekununda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Tacikistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2021-2022-ci illər üzrə Əməkdaşlıq Proqramı imzalanıb.